# "Eurovision" dünən, bu gün və sabah...

**Hələ də hər birimiz "Eurovision-2011" mahnı müsabiqəsində təmsilçilərimizin nail olduğu möhtəşəm qələbənin doğurduğu xoş ovqatın təsiri altındayıq. Bəli, sayca 56-cı yarışma ölkəmiz üçün çox düşərli oldu. Doğrudur, əvvəllər Elnur Hüseynov və Samir Cavadzadənin (2008-ci il- 8-ci yer), Araş və Aysel Teymurzadənin (2009-cu il- 3-cü yer), habelə Səfurə Əlizadənin (2010-cu il- 5-ci yer) timsalında oxşar fərəhi yaşamışdıq. Ancaq etiraf etməliyik ki, Eldar Qasımov-Nigar Camal dueti onların hamısının fövqündə durur. Təbii ki, bu cütlüyün bəxş etdiyi sevinc də tam bambaşqadır.**

**Bəs bundan öncə keçirilən "Eurovision" qalibləri hansı ölkələrin nümayəndələri olmuşlar? Bu müsabiqələr harada gerçəkləşdirilmişdir? Suallara cavab almaq üçün mütləq bu mahnı yarışmasının keçdiyi tarixi yola nəzər yetirməyimiz gərəkdir...**

...50-ci illərin ortalarında Avropa Yayımları Birliyinin üzvləri böyük əks-səda doğuracaq mahnı müsabiqəsi keçirməyi və bu məqsədlə xüsusi komitə yaratmağı qərara alırlar.

İlk yarışma 1956-cı ildə baş tutur və burada 10 ölkənin iştirakı planlaşdırılır. Avstriya, Danimarka və Böyük Britaniya vaxtında sifariş vermədiklərindən onlar siyahıya düşə bilmir və İsveçrənin Luqano şəhərində keçirilən birinci yarışmaya ev sahiblərindən başqa Belçika, Fransa, İtaliya, Lüksemburq, Hollandiya və Almaniya Federativ Respublikasının nümayəndələri qatılır. 1956-cı il mayın 24-də keçirilən finalda İsveçrə qalib adını qazanır.

### Uğur sevincini indiyədək 26 ölkə yaşamışdır.

Bu xoşbəxtlik İrlandiyanın üzünə daha çox gülmüşdür. Düz 7 dəfə! Qələbəni sıralayanlar arasında sonrakı yerləri Lüksemburq (5 dəfə), Fransa, Böyük Britaniya və İsveç (hər biri 4 dəfə), Hollandiya, İsrail və Norveç (hər biri 3 dəfə), İsveçrə, Danimarka, Almaniya, İtaliya və İspaniya (hər biri 2 dəfə) tutur.

Zirvəyə yüksələnlər siyahısında ölkəmizdən başqa Avstriya, Belçika, Yuqoslaviya, Estoniya, Latviya, Türkiyə, Ukrayna, Yunanıstan, Finlandiya,



Monako, Serbiya və Rusiyanın da adı var. Bu təamı dadmaq onların hər birinə cəmi bir dəfə nəsib olub.

## "Eurovision"u səciyyələndirən cəhətlər çoxdur.

Buna nümunə kimi onlardan bir neçəsini qeyd etmək yerinə düşərdi. İrlandiya bu möhtəşəm yarışmada üç dəfə (1992-1994-cü illərdə) qalib adını heç kəsə vermədən dalbadal zirvədə dayanıb.

Oxşar uğuru 2 dəfə olmaqla İspaniya 1968-1969, Lüksemburq 1972-1973, İsrail 1978-1979-cu illərdə yaşayıb.

Keçmiş Sovet respublikalarından zirvəyə yalnız beşi- Estoniya, Latviya, Ukrayna, Rusiya və Azərbaycan yüksəlib.

Avropanın Portuqaliya, Rumıniya, Bolqarıstan, Çexiya, Slovakiya, Macarıstan, Sloveniya, İspaniya... kimi ölkələri nə qədər arzulasalar da birinci olmaq istəklərinə çata bilməyiblər.

1992-1996-cı illər İrlandiya üçün xüsusilə məhsuldar dövr olub. Belə ki, 5 il ərzində bu ölkə 4 dəfə çempionluğa yiyələnib.

Qələbə sevincini yaşamaq üçün ev amili çox vaxt həlledici olur. Axı necə olsa güclü azərkeş dəstəyi qazanırsan. Meydan amilindən yararlanaraq yarışı öz ölkəsində keçirərkən İrlandiya iki, Lüksemburq, İspaniya və İsrail hərəyə bir dəfə birincilik qazanıb. Bəlkə bu xoşbəxtlik bizə də nəsib oldu. Axı yarışmaya indi də Azərbaycan təşkilatçılıq edəcək...

**Maraq doğuracağını nəzərə alaraq "Eurovision"un keçirildiyi vaxt, ölkə və qalibin adını oxucularımızın diqqətinə veririk:**

1.24.05.1956. İsveçrə - **İsveçrə**
2.03.03.1957. AFR - **Hollandiya**
3.12.03.1958. Hollandiya - **Fransa**
4.11.03.1959. Fransa - **Hollandiya**
5.29.03.1960. Böyük Britaniya - **Fransa**
6.18.03.1961. Fransa - **Lüksemburq**
7.18.03. 1962. Lüksemburq - **Fransa**
8.23.03.1963. Böyük Britaniya - **Danimarka**
9.21.03.1964. Danimarka - **İtaliya**
10.20.03.1965. İtaliya - **Lüksemburq**
11.05.03.1966. Lüksemburq - **Avstriya**
12.08.04.1967. Avstriya - **Böyük Britaniya**
13.06.04.1968. Böyük Britaniya - **İspaniya**
14.29.03.1969. İspaniya - **İspaniya**
15.21.03.1970. Hollandiya - **İrlandiya**
16.03.03.1971. İrlandiya - **Monako**
17.25.03.1972. B. Britaniya - **Lüksemburq**
18.04.07.1973. Lüksemburq - **Lüksemburq**
19.04.06.1974. Böyük Britaniya - **İsveç**
20.22.03.1975. İsveç - **Hollandiya**
21.03.04.1976. Hollandiya - **Böyük Britaniya**
22.07.05.1977. Böyük Britaniya - **Fransa**
23.22.04.1978. Fransa - **İsrail**
24.31.03.1979. İsrail - **İsrail**
25.19.04.1980. Hollandiya - **İrlandiya**
26.04.04.1981. İrlandiya - **Böyük Britaniya**
27.24.04.1982. Böyük Britaniya - **AFR**
28.23.04.1983. AFR - **Lüksemburq**
29.05.05.1984. Lüksemburq - **İsveç**
30.04.05.1985. İsveç - **Norveç**
31.03.05.1986. Norveç - **Belçika**
32.09.05.1987. Belçika - **İrlandiya**
33.30.04.1988.İrlandiya - **İsveçrə**
34.06.05.1989. İsveçrə - **Yuqoslaviya**
35.05.05.1990.Yuqoslaviya - **İtaliya**
36.04.05.1991. İtaliya - **İsveç**
37.09.05.1992. İsveç - **İrlandiya**
38.15.05.1993. İrlandiya - **İrlandiya**
39.30.04.1994.İrlandiya - **İrlandiya**
40.13.05.1995. İrlandiya - **Norveç**
41.18.05.1996. Norveç - **İrlandiya**
42.03.05.1997. İrlandiya - **Böyük Britaniya**
43.09.05.1998. Böyük Britaniya - **İsrail**
44.29.05.1999. İsrail - **İsveç**
45.13.05.2000. İsveç - **Danimarka**
46.12.05.2001. Danimarka - **Estoniya**
47.25.05.2002. Estoniya - **Latviya**
48.24.05.2003. Latviya - **Türkiyə**
49.12/15.05.2004. Türkiyə - **Ukrayna**
50.19/21.05.2005. Ukrayna - **Yunanıstan**
51.18/20.05.2006. Yunanıstan - **Finlandiya**
52.10/12.05.2007. Finlandiya - **Serbiya**
53.20/24.05.2008. Serbiya - **Rusiya**
54.16.05.2009. Rusiya - **Norveç**
55.29.05.2010. Norveç - **Almaniya**
56.15.05.2011. Almaniya - **Azərbaycan**

**Y. HİDAYƏTOĞLU**